## 1919 “Xalq qəzeti” – 100 2019

# Azərbaycan tarixinin bir əsrlik salnaməsi

*(əvvəli qəzetin 24 və 28 və 31 avqust 2019-cu il tarixli nömrələrində)*

### Ən yaxşı qəzet ...

“Kommunist” qəzeti maddi vəsait sarıdan da çox korluq çəkirdi. Qəzetə əsaslı yardım göstərilməsi üçün hələ R.Axundovun göndərdiyi ərizəyə uyğun olaraq, Azərbaycan K(b)P BK Rəyasət Heyəti 1922-ci il aprelin 20-də “Bakinski raboçi” qəzetinə və bütün rusdilli partiya və sovet orqanlarına təklif etdi ki, sərəncamlarında olan hər cür informasiyanı türkcə qəzetlərə də, o cümlədən “Kommunist” qəzetinə də göndərsinlər. Azərbaycan K(b) P MK Rəyasət Heyəti isə özünün 1922-ci il 3 iyul tarixli iclasında qərara almışdı ki, “Kommunist” qəzetinin əməkdaşlarının məvacibi “Bakinski raboçi”nin əməkdaşlarının məvacibinə bərabərləşdirilsin. Bu barədə XKS və AzMİK-ə vəsaitin ayrılması üçün tapşırıq verildi. Bu məsələyə XKS-nin 1922-ci il dekabrın 26-da keçirilmiş iclasında da baxılmış və müsbət həll olunmuşdu.

Amma bütün bunlar yalnız müvəqqəti olaraq redaksiya əməkdaşlarının məvacibinin verilməsini yüngülləşdirmişdir, qəzetin nəşri ilə bağlı xərclər isə artmaqda davam edirdi. Məsələ burasındadır ki, göstərilən illərdə “Bakinski raboçi” linotip üsulu ilə yığılırdı, “Kommunist” qəzeti isə bütün hərflər və hətta sözlərin arasındakı boşluqlar belə, əl ilə yığılırdı ki, bunun üçün də böyük yığıcılar kollektivi işə cəlb edilmişdi. Ona görə də qəzet naşirlərə xeyli borclu qalmışdı. Bundan əlavə, MK və XKS-nin yuxarıda göstərilən qərarlarına baxmayaraq, XKS-dən redaksiyaya 1923-cü ilin mart-iyun aylarının kəsirlərini ödəmək üçün ayrılmış vəsait – 100 min rubl qızıl pul redaksiyanın büdcəsinə köçürülməmişdi. Elə bu səbəbdən də redaksiya növbəti dəfə Azərbaycan K(b)P MK-ya yardım üçün müraciət etmişdi. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan dilində nəşr olunan “Kommunist” qəzetinə qısqanclıqla yanaşan, rəhbərləri qeyri-azərbaycanlı olan başqa təşkilatlar da, xüsusilə də “Azneft”, Mədənçilər İttifaqı, “Neft Fondu”, Bakı Soveti müxtəlif hiylə və bəhanələrə əl ataraq qəzet üçün nəzərdə tutulan vəsaiti verməkdən yayınırdılar. Bakı Sovetinin sədri Krılov isə Azərbaycan K(b)P MK-ya göndərdiyi məktubda birbaşa göstərmişdi ki, türkcə “Kommunist” qəzetinə bir qəpik də pul ödəməyəcək.

Respublikanın XKS-i 1924-cü il oktyabrın 28-də qərara almışdı ki, rəsmi məlumatlar “Kommunist” qəzetində də dərc olunsun və onlar qəzetə əlavə ediləcək “Hökumətin əmr və qərardadları”nda yerləşdirilsin. Bu məqsədlər üçün vəsait XKS tərəfindən aylıq subsidiya şəklində 1400 rubl həcmində verilməli idi.

Onu da qeyd edək ki, “Kommunist” qəzetindən fərqli olaraq “Bakinski raboçi”yə yardımlar artıqlamasilə vaxtlı-vaxtında ayrılır və özünə verilirdi. Bu, azmış kimi “Bakinski raboçi” heç vaxt müəyyənləşdirilmiş maliyyə çərçivəsinə sığmamışdır. Bu məsələ nəticəsiz olaraq dəfələrlə Ümumittifaq K(b)P Zaqafqaziya Nəzarət Komissiyasının 1926-cı ilin sonunda və Azərbaycan K(b)P MK-nın 1928-ci il iyulun 9-da keçirdikləri iclaslarında araşdırılmış və təsbit edilmişdir ki, “Bakinski raboçi” qəzeti ona edilən bir sıra xəbərdarlıqlara, göstərişlərə və direktivlərə baxmayaraq, redaksiya onun üçün müəyyənləşdirilmiş smetaya sığmamış, aidiyyəti orqanların göstərişlərini heç vaxt yerinə yetirməmişdir”.

Bir halda ki, söhbət MK-nın və hökumətin “aparıcı” orqanı olan “Bakinski raboçi” qəzetindən düşdü, səthi olsa da, onun fəaliyyətini “Kommunist” qəzeti ilə müqayisə etmək pis olmazdı. Faktlara müraciət etmək üçün “Bakinski raboçi” qəzetini 1928-ci ilin iyununda təhqiq etmiş Ümumittifaq K(b)P MK-nın təlimatçısı Ksenofontovun tamamilə məxfi materiallarına nəzər yetirək. Beləliklə, 1928-ci il aprelin 7-də Ümumittifaq K(b)P MK-da müşavirə keçirilmiş, kənddə vəziyyət məsələsi müzakirə olunmuşdu, Bakıda isə həmin gün o dövr üçün çox aktual sayılan kolxoz quruculuğu mövzusuna dair müşavirə keçirilmişdi. “Bakinski raboçi” qəzetinin səhifələrində həmin məsələlərlə bağlı bircə kəlmə də dərc olunmayıb, hərçənd bunları geniş işıqlandırmaq onun birbaşa vəzifəsi idi. Həmin məsələlər yalnız “Kommunist” qəzetində işıqlandırılıb.

Ümumittifaq K(b)P XV qurultayı keçirilən günlərdə “Bakinski raboçi” qəzeti (qeyd edək ki, qəzetin redaktoru Lifşits xüsusi dəvətnamə ilə qurultayda iştirak edirdi, “Kommunist” qəzetinin redaktoruna isə belə dəvətnamənin verilməsinə qəti etiraz edilmişdi) partiya orqanı kimi qurultay materiallarını işıqlandırmaq əvəzinə, hər gün bulvar xarakterli, yüngül məzmunlu – “Vırubovanın gündəliyi”, “Üç yorğa”, “Aksyutkanın məhəbbəti” kimi “ədəbi yazılar”ı bütöv səhifələrlə dərc etmişdi.

“Bakinski raboçi”nin səhifələrində 1920-ci ildən sonra Azərbaycana (Bakı istisna edilməklə) qəzetin ümumi həcminin cəmi 1 faizi ayrılırdı, axı bu qəzet təkcə Bakı Komitəsinin orqanı deyildi, hərçənd onun üçün ayrılan yer də cəmi 7 faiz idi. Göyçay, Bayıl, Quba, Karyagin (Füzuli), Lənkəran və s. partiya təşkilatları ilə bağlı Azərbaycan K(b)P MK tərəfindən qəbul olunmuş qərarlar “Bakinski raboçi”də dərc olunmayıb, onlar yalnız “Kommunist” qəzetinin səhifələrindədir.

Bununla yanaşı, “Bakinski raboçi” qəzeti bəzən mövcud olmayan dekretlər, qərarlar haqqında materiallar dərc edir, arzu ediləni gerçəklik kimi qələmə verirdi. Misal gətirək. AzMİK-in işlər müdiri özünün “Bakinski raboçi”yə göndərdiyi 1928-ci il 4 noyabr tarixli 330124 saylı məktubunda yazırdı: “Son dövrlərdə Sizin qəzet qəbul olunması AzMİK-ə ünvanlanan, amma əslində nəinki qəbul olunmamış, heç qəbul olunması da planlaşdırılmamış dekret və sərəncamlarla bağlı yazılar dərc edir. Biz bu barədə dəfələrlə Sizə yazıb, xahiş etmişik ki, belə qeyri-dürüst məlumatları haradan aldığınızı bizə bildirəsiniz, fəqət heç bir cavab almamışıq”. Belə iradlar başqa məktublarda da kifayət qədərdir.

Əgər “Bakinski raboçi” əsasən İttifaq mərkəzinin ruporu idisə, “Kommunist” qəzeti ondan fərqli olaraq respublika problemlərinə daha çox diqqət yetirmişdir. Onun səhifələrindəki materialların əksəriyyəti Azərbaycan gerçəkliyinin, kənd və şəhər həyatının işıqlandırılmasına həsr edilib. Görünür, elə buna görə də partiya və dövlət rəhbər dairələrində “Bakinski raboçi”yə artıq diqqət verilir.

“Bakinski raboçi” qəzetinin Azərbaycan gerçəkliyinə laqeyd münasibəti “Kommunist” qəzetinin səhifələrində dəfələrlə tənqid olunmuşdur. Məsələn, görkəmli yazıçı, AzMİK-in katibi Tağı Şahbazinin (Simurğ) 7 aprel 1924-cü il tarixli “Mətbuatımıza yeni nəzər” məqaləsində deyilirdi: “Bakinski raboçi”yə yalnız qıraqdan baxıldıqda bəlli olur ki, o, Azərbaycan mərkəzinin orqanıdır… Belə ki, qəzetin 23 mart tarixli 65-ci sayında, 31 mart tarixli 71-ci sayında, 1 aprel tarixli 72 sayında və s. Azərbaycan həyatına dair (Bakı istisna olmaqla) 10-15 sətirlik ikinci dərəcəli yazı – telefon xəttinin çəkilməsi və s. bu kimi məlumat dərc edilib… Onun səhifələrində kənd təsərrüfatı həyatına dair heç nə yoxdur. Azərbaycan kəndi yalnız ərzaq vergisi toplanan zaman yada düşür”.

“Bakinski raboçi” qəzetinin diqqətini Azərbaycan gerçəkliyinə hər hansı yolla cəlb etmək məqsədi ilə “Kommunist” qəzeti onu dəfələrlə ayrı-ayrı siyasi kampaniyaların – Sovetlərə seçkilərin keçirilməsi, vahid kənd təsərrüfatı vergisinin yığılması, kənd təsərrüfatı uduşlu istiqrazının təbliği və s. kampaniyalarda fəal iştiraka dəvət etmiş, amma cavab almamışdır.

Bir məsələni qeyd etməyi özümüzə borc bilirik. “Kommunist” qəzeti əski əlifba (ərəb) ilə nəşr olunduğundan, tədqiqatçıların hamısı, bir qayda olaraq, “Bakinski raboçi” qəzetinin çox da dürüst olmayan, əksər hallarda isə təhrif olunmuş və yarımçıq materiallarından istifadə edərək “bəhrələnirlər”. Tariximizi daha düz, təhrifsiz çatdıran “Kommunist” qəzetinə isə baxılmır.

### Digər qəzetlərə yardım

“Kommunist” qəzetinin səhifələrində kənd təsərrüfatı və kənd həyatı ilə əlaqədar olan “Azərbaycan füqərası” (1921-1921), “Kəndçi qəzetəsi” və qəza qəzetlərinin fəaliyyətinə lazımınca diqqət yetirilirdi.

Azərbaycan K(b)P MK 1920-ci il iyulun 31-də qərar qəbul etmişdi ki, R.Axundovun redaktəsi ilə “Kənd füqərası”nın nəşrinə başlanılsın. “Kommunist” qəzetinin əməkdaşları da bunun üçün səfərbərliyə alınmışdılar. Tezliklə “Kənd füqərası” qəzetinin nəşrinə başlanıldı. Amma qəzeti əvvəlcə “Kommunist”in redaktoru Həbib Cəbiyev, sonra isə Sultan Məcid Əfəndiyev redaktə etdi. İstər həftəlik “Kənd füqərası”, istərsə də gündəlik “Azərbaycan füqərası” qəzeti sərbəstləşən kimi yalnız siyasi mövzularda yazılara üstünlük verib, kəndi unutdular. Az sonra onlar vahid bir qəzetdə “Azərbaycan füqərası” adı ilə birləşdirildilər və o, Azərbaycan K(b)P MK və BK-nın orqanına çevrildi, “Kommunist” qəzeti isə Azərbaycan İnqilab Komitəsinin (Azrevkom) və Bakı Sovetinin orqanı oldu. “Azərbaycan füqərası”nın Azərbaycan K(b)P MK və BK-nın orqanı olmasına baxmayaraq, o, dəfələrlə nəşr etdiyi yazıların tematikasının adına uyğun gəlməməsi ucbatından “Kommunist” qəzetinin tənqid obyektinə çevrildi. “Azərbaycan füqərası” da kənd həyatına, kənd problemlərinə laqeyd yanaşırdı və bunun nəticəsi olaraq 1921-ci il dekabrın 10-da Azərbaycan K(b)P MK-nın qərarı ilə onun adı dəyişdirilib “Azərbaycan xəbərləri” qoyuldu, lakin 1922-ci il yanvarın 27-də öz fəaliyyətini dayandırdı.

1923-cü il iyunun 16-da “Kommunist” qəzetinin bazası əsasında və əməkdaşlarının qüvvəsi ilə “Əkinçi qəzetəsi” adlı yeni kəndli qəzetinin nəşrinə cəhd göstərildi. Amma cəmi bir nömrə buraxıldı, lazımi baza və jurnalist kadrlarının yoxluğu ucbatından qəzetin nəşrini davam etdirmək mümkün olmadı.

Xüsusi kəndli qəzetinin zəruriliyini əsaslandıran “Kommunist” qəzeti “Bizə kəndli qəzetəsi lazımdır” adlı redaksiya məqaləsində yazırdı ki, “indi kəndimiz nəşr olunan qəzetələrin yalnız 20 faizini alır, hərçənd əhalimizin 80 faizdən artıq hissəsi kənddə yaşayır… Mərkəzi qəzetlər həmkarlar ittifaqları barəsində, siyasətdən, fəhlələrdən yazır, kəndlilərə isə kənd təsərrüfatı, özlərinin həyatları barədə qəzetə lazımdır. Onu da nəzərə almaq lazımdır ki, qəza qəzetələri bu mənada onların tələbatlarını ödəmək qabiliyyətinə malik deyil”.

Yalnız Azərbaycan K(b)P MK-nın işə ciddi qarışmasından sonra qəzetin nəşri baş tutdu. “Kommunist” qəzetinin bir sıra əməkdaşları “Kəndçi qəzetəsi” adlanan yeni qəzetin nəşrini təşkil etmək üçün səfərbərliyə alındı. Bunlardan Ə.Qarayev (redaktor), H.Zeynallı, R.Axundov və M.Əlixanovu göstərmək olar. “Kommunist” qəzeti hər gün “Kəndçi qəzetəsi”nin təbliğatını aparır, kəndliləri və qəza işləri ilə əlaqədar adamları abunə yazılmağa çağırırdı. Müəyyən ləngimədən sonra “Kəndçi qəzetəsi”, nəhayət ki, 1923-cü il oktyabrın 12-dən həftədə iki dəfə 2 min nüsxə tirajla çıxmağa başladı. Qəzetin səhifələri aqronom təbliğatlarına və respublikanın kənd təsərrüfatı həyatına həsr edilirdi.

“Kommunist” qəzetinin səhifələrində “Kəndçi qəzetəsi”nin hər bir nömrəsinin məzmunu haqqında məlumat verən gündəlik guşə açılmışdı. Bundan əlavə, qəzet özünün bütün qəza və rayon müxbirlərinə tapşırmışdı ki, “Kəndçi qəzetəsi”nə əməli köməklik göstərmək məqsədi ilə ona qəzalardan yazılar və informasiyalar göndərsinlər, hamilik edən fəhlələrə isə təklif etmişdi ki, “Kəndçi qəzetəsi”ni alıb kəndlərə göndərsinlər. “Kəndli qəzetəsi”ni (qəzet 1924-cü ilin sonundan 1932-ci ilə kimi belə adlandı, 1932-ci ildən 1935-ci ilədək “Azərbaycan kolxozçusu”, həmin dövrdən SSRİ dağılana qədər isə “Sovet kəndi” adlanmışdı) gücləndirmək məqsədi ilə dəfələrlə “Kommunist” qəzetinin əməkdaşları səfərbərliyə alınmışdı.

“Kommunist” qəzetinin səhifələrində qəza mətbuatına da xeyli diqqət yetirilirdi. O, qəza qəzetləri ilə ünsiyyət yaratmağı özünə borc bilir və hesab edirdi ki, belə münasibətlər olmazsa, onda mətbuat geridə qalmış kəndə doğru irəliləyə bilməz, qəza mətbuatı isə inkişaf etməz. “Kommunist” qəzetinə görə “qəza mətbuatı öz bölgəsində əsl kəndli qəzetəsinə çevrilməlidir. Bu onun vəzifəsidir”.

Müxtəlif illərdə qəzalarda həftəlik “Yeni Gəncə” və “Novaya Qyandja” (1922-ci ildən), “Şəki fəhləsi” (1922-ci ildən), “Şərq qapısı” (1922-ci ildən – Naxçıvan), “Ağdam şöləsi” (1923-ci ildən), “Yeni dirilik” (1922-ci ildən – Quba), “Zaqatala kəndçisi” (1923-ci ildən), “Qırmızı Muğan” və “Krasnaya Muqan” (1924-ci ildən – Salyan) və s. qəzetlər nəşr olunurdu. Hər həftə “Kommunist” qəzetinin səhifələrində həmin qəza qəzetləri haqqında yazılar dərc edilirdi.

“Kommunist” qəzeti onların fəaliyyətini hərtərəfli xarakterizə edirdi. Onun fikrincə, qəza qəzetlərinin ən yaxşısı “Yeni dirilik”, “Zaqatala kəndçisi”, “Ağdam şöləsi” və “Qırmızı Muğan” idi, “Yeni Gəncə” və “Şəki fəhləsi” qəzetləri isə daha çox siyasi mövzuda yazırmışlar.

“Kommunist” qəzeti, eyni zamanda, öz səhifələrində qəza mətbuatının acınacaqlı vəziyyəti ilə bağlı dəfələrlə məsələ qaldırmışdır. Məsələn, “Azərbaycan qəzalarında qəzet işinin təşkili” məqaləsində oxuyuruq: “Şriftlər çatışmır. “Qırmızı Muğan” və “Şərq qapısı” kimi qəzetələrin müxtəlif ölçülü cəmi iki kassa şrifti var və bu səbəbdən də qəzetənin bir nömrəsini bir neçə dəfə biabırçı şəkildə çap edirlər”. Həmin qəzetlərə başqa yolla köməklik göstərə bilməyən “Kommunist” qəzeti öz kasıb fondunda olan şriftlərin bir hissəsini təmənnasız olaraq onlara vermişdi.

* * *

XX əsrin 30-cu illərində “Kommunist” qəzetinin əsas mövzusu Rusiya sənayesi üçün çoxlu neft hasilatı və pambıq istehsalı məsələləri, kənd təsərrüfatının elliklə kollektivləşdirilməsi, qadın azadlığı və fəallığı, teatr və ... nə qədər acı olsa da, “xalq düşmənlərinin ifşa olunması” məsələlərindən ibarət idi.

Məhz bu dövrdə qəzetin əməkdaşlarından Xəlil İbrahim, Fərhad Ağazadə, habelə bu qəzetdə redaktorluq etmiş Əliheydər Qarayev, Ruhulla Axundov, Böyükağa Talıblı, Ağababa Yusifzadə, Həbib Cəbiyev, qəzetlə əməkdaşlıq edən neçə-neçə yazıçı-şair – Mikayıl Müşfiq, Hüseyn Cavid və başqaları “millətçi və xalq düşməni” damğası ilə məhv ediliblər.

1941-1945-ci illər müharibəsi qəzetin səhifələrində geniş işıqlandırılmış və bu müharibədə faşist Almaniyasının məğlub olacağı barədə elə ilk günlərdən inandırıcı yazılar çap olunmuş, xalqa vətənpərvərlik ruhu aşılayan məqalələr yazılmışdır. 1941-ci il iyunun 24-də çap olunmuş “Qəhrəman xalqın qüdrətli səsi” redaksiya məqaləsində vətənpərvər çağırışlar edilir, düşmən lənətlənir və “Biz qalib gələcəyik!” sözləri ilə tamamlanırdı.

Qəzetdə pensiyaçılara, qadınlara, yeniyetmələrə müraciət edilir, əmək cəbhəsində orduya çağırılmış kişiləri əvəz etmələri təbliğ olunurdu. Azərbaycanın görkəmli simalarından Rəsul Rza, Mirzə İbrahimov, Səməd Vurğun, Sabit Rəhman, Ənvər Məmmədxanlı, Yusif Əzimzadə, professor Mustafa Topçubaşov, professor Sona xanım Vəlixan, professor Fuad Əfəndiyev, professor Mirəli Qaşqay, Abbas Zamanov, Nəsir İmanquliyev, müəllim Səidə İmanova, podpolkovnik Akim Abbasov, Xasay Vəzirov, Mikayıl Abdullayev və bir çox başqalarının vətənpərvərlik ruhlu yazıları tez-tez qəzetin səhifələrində çap olunurdu. Burada yazıçı və şairlərin cəbhədə cəsur və qəhrəman döyüşçülərlə görüşmələrindən reportajların verilməsi, arxa cəbhədə yorulmadan çalışanların fəaliyyətindən bəhs edən yazıların arasıkəsilmədən çap olunması diqqəti cəlb edir.

Müharibədən sonrakı illərdə, xüsusilə də 1946-1958-ci illərdə qəzetin əsas mövzuları neftçıxarma, o cümlədən Xəzər dənizində neftçıxarmadan, tanınmış neftçilərin – Ağa Nemətulla, Gülbala Əliyev, Qurban Abbasov, Kaveroçkin və başqalarının tərənnüm edilməsindən, Mingəçevirdə SES-nın tikilməsindən, Sumqayıtda neft-kimya kombinatının işə salınması və fəaliyyətindən, pambıqçıların, xüsusilə də Bəsti Bağırova, Şamama Həsənova, Qüdrət Səmədov, Sürəyya Kərimova və b. haqqında qəzetin əməkdaşlarından Əhməd Cəmil, Musa Məmmədzadə, Qılman Musayev (İlkin), Səlim Abdullayev, Fazil Sadıqov, Osman Sarıvəlli, Zeynal Xəlil, Sabit Rəhman, Nəbi Babayev, M.A.Sultanov, A.Ağamirov, A.Kazımov və başqalarının reportajları və məqalələri verilmişdir.

1959-1969-cu illərdə qəzetin səhifələrində işıqlandırılan əsas məsələlər şəxsiyyətə pərəstişin tənqidi, sənayedə, kənd təsərrüfatında, təhsildə və s. sahələrdə sosializm yarışlarının keçirilməsi, neft və neft çıxarma üsulları, neftçilər, pambıqçılar və pambıqçılıq, tikinti və abadlıq işlərinin aparılması, çayçılığın, üzümçülüyün genişləndirilməsi ön sıraya çıxarılır. Bu sahələrdə yazan əsas müəlliflərdən Əli Vəliyev, Salam Qədirzadə, Əli İldırımoğlu, Ağababa Rzayev, Mahmud Abbasov, Rəfail Nağıyev, Teyyub Qurban, Xudu İsgəndərov, Əlfi Qasımov, Yusif Kərimov, Nurəddin Babayev, Telman Əliyev, Məmmədəli Nasir, Nəriman Zeynalov, Musa Əliyev, Hüseyn Mehrəliyev, Hacı Həsənov, Cəlal Sərdarov, Əhməd İsayev, Əfqan Əsgərov, Xəlil Mütəllimov, Cahangir Gözəlov, Tofiq Həsənov, Zakir Süleymanov, İsrafil Nəzərov, rəssam Hüseyn Əliyev, fotomüxbirlər F.Bağırov, V.İbadov və başqalarının adlarını qeyd etmək yerinə düşər.

1969-1982-ci illər sənaye və kənd təsərrüfatının sürətli inkişafı ilə yanaşı “Kommunist” qəzetinin də tarixində bir canlanma dövrüdür. Bütün respublikada olduğu kimi, bu qəzetdə də hər şeyə yeni baxışla və var qüvvə ilə yanaşma ön plana keçdi. Bu, ümummilli lider Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsi və məsuliyyətin artırılması, rüşvət və əyintilərə qarşı kəskin mübarizənin başlanması dövrü idi. Bu dövrdə qəzetin səhifələrində ölkə sənayesinin yeni sahələrinin də yaradılması ilə işıqlandırılması, ölkədə pambıqçılığın, üzümçülüyün xüsusilə genişləndirilməsi, rayon və kəndlərdə kiçik sənaye müəssisələrinin yaradılması, təhsilin, elmin, mədəniyyətin daha da inkişaf etdirilməsi problemlərinin geniş işıqlandırılması diqqəti cəlb edir. Bu dövrdə inşası ilə diqqəti cəlb edən nəhəng obyektlərdən biri də SSRİ miqyasında böyük mübahisələrə səbəb olmuş Bakı Kondisionerləri zavodunun tikilməsi idi.

1982-1988-ci illər bütün SSR-də olduğu kimi, Azərbaycan SSR-də də durğunluq dövrünə çevrildi. Artıq qıtlıq dövrü bütün sahələrdə özünü göstərməyə başladı. Mağazalarda növbələr yarandı, dükanların rəfləri tədricən boşalmağa başladı. SSRİ-nin səriştəsiz boşboğaz rəhbəri problemlərin həlli ilə məşğul olmaq əvəzinə dünya terrorçu erməni mafiyasının təsiri altına düşdü və bir müddət sonra ondan tamamilə asılı qaldı. Məhz bu dövrdə Azərbaycan SSR-in kollektiv təsərrüfatının mühüm sahəsi olan üzümçülük dövlət və respublika rəhbərliyinin düşünülməmiş siyasəti nəticəsində sözün tam mənasında məhv edildi. Az sonra SSRİ səviyyəsində dövlət rəhbərliyinin dəstəyini əldə edən ermənilərin Azərbaycan SSR-ə qarşı ərazi iddiaları başlandı ki, bunun da nəticəsində sovet imperiyasının çökməsi prosesinə start verildi.

Belə bir məqamda – 1991-ci ilin avqustunda “Kommunist” qəzeti redaksiyasının kollektivi – “Azərbaycan” adını bərpa edə bilərdi. Amma bu ad Qarabağa Xalq Yardımı Komitəsi tərəfindən nəşr olunan qəzetə verildiyindən bu, mümkün olmadı. Hər halda bu gün adı fəxrlə çəkilən “Xalq qəzeti” heç də yağışdan sonra bitən göbələk deyil və onun dərin mənalı, fəxarətli, könül açan, razılıqla xatırlanan keçmiş tarixi var. Sovet hakimiyyəti illərində də xalqımızın milli maraqlarına, tərəqqisinə, maariflənməsinə, Vətənimiz Azərbaycanın sənayesi və kənd təsərrüfatının inkişafını təbliğ və tərənnüm edən, onun qaranlıq yollarına çıraq tutub işıqlandıran, torpaqlarımızın bütövlüyü yolunda ümumxalq hərəkatı dövründə və müstəqillik uğrunda mübarizə dönəmində xalqla bir yerdə olan, müstəqilliyimizə sədaqətlə xidmət yolu seçmiş redaksiya kollektivi “Kommunist” adından imtina etdikdən sonra xalqa xidmət amalını əsas götürərək onu “Xalq qəzeti” adlandırmışdır.

Bu qəzet fəaliyyət göstərdiyi 100 il ərzində Azərbaycan dövlətçiliyinin tarixində mühüm rol oynamışdır. Mədəniyyət, incəsənət və ədəbiyyat, iqtisadiyyat, xalq təsərrüfatının bütün sahələrinin bərpası və inkişafı məsələləri, xüsusilə də neft və kənd təsərrüfatının bərpası, həmkarlar hərəkatı, ictimai-siyasi həyat, hamilik hərəkatı, qənaət rejimi, beynəlxalq həyata dair və s. məsələlər onun səhifələrində geniş işıqlandırılmışdır.

Yarandığı ilk vaxtlarda kiçik həcmli və ikinci dərəcəli olan “Kommunist” qəzeti az sonra bütün Cənubi Qafqazda ən aparıcı bir qəzetə çevrilə bilmişdi. Onun təşəkkül və inkişaf dövrü kifayət qədər mürəkkəb və çətin olmuşdur. Həyatındakı çətinliklərə, yanılmalara və xətalara baxmayaraq, “Kommunist” qəzeti bütün çətinliklərə sinə gərib, özünü qoruya bilmiş, inkişaf etmiş, kütlələrlə geniş əlaqələr yarada bilmişdir. Azərbaycan milli ziyalılarının bir çox nümayəndələri bu qəzetin ətrafında cəmləşmişdi.

“Kommunist” qəzetinin ana dilimizin publisistik və təsvirçilik üslubunun inkişafı və mükəmməlləşməsindəki rolu və xidməti danılmazdır. Jurnalist kadrlarının yetişdirilməsində, savadsızlığın ləğvində və respublikada mədəniyyətin ümumi səviyyəsinin yüksəldilməsində bu qəzet mühüm rol oynamışdır.

Bu gün “Xalq qəzeti” adı ilə nəşrini fasiləsiz davam etdirən 100 yaşlı qocaman qəzetimiz əvvəlki kimi xalqa yüksək səviyyədə xidmət göstərir, müasir dövrün tələbləri ilə ayaqlaşır, nəinki özünün internet nəşrini də davam etdirir, hətta bu nəşrin mühüm materiallarının ingilis və rus variantlarını da yaymaqla dünya oxucularını sürətlə inkişaf edən Azərbaycan Respublikasının gerçəkliklərindən xəbərdar edir.

***Elmar MƏHƏRRƏMOV,***
***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu İnformasiya Mərkəzinin rəhbəri, tarix üzrə fəlsəfə doktoru, dosent***


XALQ QƏZETİ

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

Əhalinin sosial müdafiəsinin təmini dövlətin strateji vəzifələrindəndir

“ABAD”ın yaradılması Azərbaycanda sosial xidmətlər sahəsində aparılan islahatların məntiqi nəticəsidir »3

Azərbaycan tarixinin bir əsrlik salnaməsi »4

Rusiya – Türkiyə: İdlib manevri və yeni əməkdaşlıq imkanları »5

Şamaxıda I Azərbaycan Üzüm və Şərab Festivalının açılış mərasimi keçirilib »6